*Səmədova Nailə.Məmməd Səid Ordubadinin "Səttar xan" əsəri və onun əlyazma nüsxələri // Elmi əsərlər,2020,1(10), yanvar-iyun, s.13-16.*

UOT 821.512.162

**Səmədova Nailə,**
*filologiya üzrə elmlər doktoru*
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu,*
*Bakı ş., İstiqlaliyyət küç.26.*
e-mail:nailesamadova@yahoo.com

# MƏMMƏD SƏİD ORDUBADİNİN "SƏTTAR XAN" ƏSƏRİ VƏ ONUN ƏLYAZMA NÜSXƏLƏRİ

**Açar sözlər:** *Səttar xan, inqilab, əlyazma, məqalə, avtoqraf.*

XIX əsrdə Qaradağlı Camal tərəfindən Azərbaycanda başlanmış hərəkat Teymur adlı xalq qəhrəmanının başçılığı ilə inkişaf etməyə başlamışdı. Teymur Camalın hərəkatını çobanlar üsyanı çərçivəsindən çıxarmaqla ona ümumi kəndli hərəkatı şəkli vermiş və hərəkata siyasi istiqamət göstərmişdi. Təəssüf ki, Teymur öz hərəkatını uzun müddət davam etdirə bilməmişdi. O, bir xəyanət nəticəsində həbsə alınıb öldürülmüşdü.

Teymurdan sonra İsmayıl xan mübarizəni davam etdirir. O, Camalın və Teymurun intiqamını Əmir Nizamdan almaq üçün hücumların birində top gülləsi ilə öldürülür. İsmayıl xandan sonra mübarizəyə Səttar xan başlayır. Teymurun və İsmayıl xanın dəstəsində iştirak edənlərdən bir çoxu onun ətrafına yığışır.

Səttar xanın həyat və fəaliyyəti Məmməd Səid Ordubadinin "Səttar xan" adlı məqalə-oçerkində hərtərəfli işıqlandırılmışdır. Onu da qeyd etmək lazımdır ki, Ordubadi "Qara Məlik" və "Qaradağlı Camal" əsərlərində olduğu kimi "Səttar xan" məqaləsində də "bir publisist yazıçı kimi keçmiş tariximizi yada salmaqla qəhrəmanların, xalq içərisindən çıxmış igidlərin surətini canlandırmışdır" [1, s.52]. "Səttar xan" məqaləsi ədibin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan şəxsi arxivində mühafizə olunur. Ərəb əlifbası ilə avtoqrafdır. 15 vərəqdən ibarətdir.

Nəzərə çatdırmaq lazımdır ki, yazılı mənbələrdə Səttar xan Hacı Həsən Bəzzazın oğlu, İsmayıl xanın qardaşı kimi göstərilsə də Ordubadinin məqaləsində İsmayıl xanın oğlu olduğu qeyd edilir.

Məmməd Səid Ordubadi görkəmli, bacarıqlı, şöhrətli Səttar xanın IX əsrin Babəki, XII əsrin Fəxrəddini, XVII əsrin Koroğlusu, XIX əsrin Camalı, Kərəmi, XX əsrin Qaçaq Nəbisi kimi tarixi şəxsiyyət olmasını xüsusilə vurğulayır və qeyd edir ki, Səttar xan hərəkatı "əsrlərdən bəri Azərbaycan kəndində baş verən kəndli hərəkatının şəhərə üz çevirməsi və Səttar xanın şəxsiyyətində olaraq mütəşəkkil və müntəzəm bir şəkil alması kimi məna edilməlidir" [2, s.1].

Səttar xan az bir zaman ərzində xarici dövlətlərdə olan inqilabi təşkilatlarla əlaqəyə girərək, onlardan kömək alırdı. Onun ordusunda hərbi təcrübələri olan zabitlər, hərbi mühəndislər, hərbi doktorlar üstünlük təşkil edirdilər. Səttar xan eyni zamanda xarici dövlətlərin nümayəndələri ilə əlaqə yaradırdı və bununla xarici müdaxiləyə imkan verməmək üçün bütün tədbirləri həyata keçirirdi.

Ordubadi məqalədə Səttar xanın daxili və xarici siyasətindən, Hərbi İnqilab komitəsi yaratmasından, etdiyi islahatlardan, Azərbaycan dilində mətbuat yaradılması yolunda fəaliyyətindən, mətbuata göstərdiyi xidmətdən ətraflı bəhs etmişdir. "Xalq qəhrəmanı Cənubi Azərbaycanda qadın məsələsinin fəna bir vəziyyətdə olduğunu nəzərə alaraq qadın azadlığı fikrini intişar etmək üçün düzələn gizli cəmiyyətə öz köməyini vəd etmişdi. O, bununla

kifayətlənməyərək məscid həyətlərində, ziyarətgah və məqbərələrdə mövcud olan siğəxanaları dağıtmaq və onları ifşa etmək üçün də az çalışmadı" [2, s.13].

Səttar xan Azərbaycan dilində məktəblər açılması və Azərbaycan dilində dərs kitabları hazırlanması ilə məşğul olarkən Hindistanda çıxan "Həblülmətin" qəzeti ona hücuma başlamışdı. Ordubadi əsərdə qəzetin 1907-ci il 30-cu və 39-cu saylarında dərc edilmiş məqalələrindən nümunələr gətirərək bu orqanın Azərbaycan dilinə qarşı yönəlmiş fikirlərini diqqətə çatdırmış və bu irticanın Səttar xanın mətanətini pozmadığını qeyd etmişdi.

Səttar xan hərəkatı Məmməd Səid Ordubadinin "İranda inqilab" məqaləsində də işıqlandırılmışdır. Əsərin əlyazması ədibin şəxsi arxivində saxlanılır. Ərəb əlifbası ilə avtoqraf olan məqalə 14 vərəqdən ibarətdir. Müəllif əlyazma üzərində cüzi dəyişikliklər etmişdir. Keçən əsrin əvvəllərində İrandakı inqilabi durumdan bəhs edən Ordubadi Səttar xan hərəkatına geniş yer vermişdi. Əvvəlki məqalədə olduğu kimi burada da Səttar xanın inqilabi fəaliyyəti təsvir edilmişdir. Məzmun eyni olsa da, bu əlyazma nüsxəsi əvvəlkindən fərqlidir. Əlyazmada Səttar xanın hökumət ordusuna qarşı üsyanı, şəhərdən başlanan bu üsyanın ildırım sürətilə kəndlərə yayılması, ən əsası, xalq qəhrəmanının dil uğrunda fəaliyyəti daha geniş və ətraflı verilmişdir. Bütün təzyiqlərə baxmayaraq, Səttar xan və onun ətrafında olan ziyalı qüvvələr "ana dilində dərs keçmək, doğulan uşaqları Azərbaycan dilində tərbiyə etmək, müxabirat və yazı işlərini Azərbaycan dilinə çevirmək, dərs kitablarını Azərbaycan dilində yazmaq, mövcud hər nə kitablar varsa, Azərbaycan dilinə çevirmək fikrinin üzərində dururlar"[3, s.173].

Səttar xan haqqında məqalənin daha bir əlyazma nüsxəsi Məmməd Səid Ordubadinin "İran tarixinə aid oçerklər" adlı irihəcmli əsərinin bir bölməsini əhatə edir. "İnqilab hərəkatının ikinci dövrü – Səttar xan" adlanan bu hissə ərəb əlifbası ilə yazılmış avtoqraf nüsxədir. Həcmi 15 vərəqdir. Bu nüsxədə də əvvəlki iki nüsxələrdə olduğu kimi Səttar xan hərəkatından bəhs edilir. Bununla belə burada da nüsxə fərqləri nəzərə çarpır.

Əsərdə Səttar xanın öz fəaliyyəti ilə yalnız bir döyüşçü deyil, tədbirli bir dövlət başçısı olduğu göstərilmişdir. O, Azərbaycanın idarəsini əlinə alaraq hakimlərin təyini və dəyərsiz hakimlərin xaric edilməsi işlərinə bilavasitə özü nəzarət edirdi. Səttar xan beynəlxalq vəziyyətlə tanış olmaq üçün Avropada nəşr edilən qəzetləri oxutdurub məlumat alırdı. Hərbi iclasların birində Səttar xan fransız dilini öyrənmək istəyən Təbriz ziyalılarına gülərək – "mən Rusiya çarına qarşı mübarizə aparıram. Lakin Rusiyanın qulağının dibində otura-otura özünü Parisə bağlamaq istəyən axmaqlardan deyiləm"[4, s.38] – deyirdi.

Məmməd Səid Ordubadi məqalədə yalnız Səttar xandan deyil, eyni zamanda, onun silahdaşlarından, qazandıqları qələbələrdən söhbət açır. Qeyd etmək lazımdır ki, "İran tarixinə aid oçerklər" adlı irihəcmli əsərinin "İnqilab hərəkatının ikinci dövrü – Səttar xan" adlı hissəsində Ordubadi Azərbaycan dilində məcmuə nəşri ilə bağlı məlumat verərək yazır: "Səttar xan birinci olaraq Azərbaycan dilində məcmuə nəşrinə qərar verdi. O, sabiq "Əxtər" qəzetəsi müdiri Mirzə Əliqulu xanı yanına çağırıb "Molla Nəsrəddin" məcmuəsi məsləkində bir məcmuənin nəşrini ona tapşırdı. "Azərbaycan" adında məcmuənin birinci nömrəsi qızıl suyu ilə çap edilib Səttar xana verildiyi zaman o:

-Bu gün Azərbaycan xalqının milli bayramıdır! – deyə sevindiyindən dəsmalını çıxarıb gözlərini silmişdi. Səttar xan bu münasibətlə məcmuənin müdirinə yüz tümən və redaksiya işçilərinin hər birisinə bir dəst libas mükafat vermişdi" [4, s.42].

Ordubadi sözügedən məqalədə də "Həblülmətin" qəzetinin 1907-ci il 30-cu və 39-cu saylarından nümunələr verir. Lakin Tağızadə ilə bağlı fikirlər başqa nüsxələrdə yer almasa da bu məqaləyə daxil edilmişdir. Tağızadə Şimali Azərbaycanın Vənənd kəndində doğulmuşdur. O, səsini "Həblülmətin" qəzetinin səsinə qoşmuşdu. Bununla bağlı "Molla Nəsrəddin" məcmuəsində bir karikatura da verilmişdi. Karikaturada Tağızadə bir cərrah şəklində göstərilmişdi. O, azərbaycanlıların dilini ağzından çıxarıb fars dili qoyurdu.

Məmməd Səid Ordubadinin istər "Səttar xan", istər "İranda inqilab" məqalələri, istərsə də "İran tarixinə aid oçerklər" əsərinin "İnqilab hərəkatının ikinci dövrü – Səttar xan" adlı hissəsi eyni sonluqla bitir. Hər üç nüsxənin sonluğunda göstərilir ki, 1910-cu ilin iyul ayında Heydər xanın və daşnaq Yefremin xəyanətləri nəticəsində Səttar xanın Sədrəzəm parkındakı qərərgahı top atəşinə tutulmuş və Səttar xan yaralı olaraq əsir düşmüşdü. Bununla da xalq qəhrəmanının fəaliyyət tarixinə məxsus kitabın son və faciəli səhifəsi qapanmışdı.

Qeyd etməliyik ki, Məmməd Səid Ordubadinin şəxsi arxivində "İnqilab hərəkatının ikinci dövrü – Səttar xan" adlı məqalənin bir nüsxəsi də saxlanılır. Bu fərqli nüsxə olsa da əvvəli naqisdir və iki vərəqdən ibarətdir.

Cənubi Azərbaycanda inqilab tarixinin öyrənilməsində Səttar xan hərəkatının böyük əhəmiyyəti olmuşdur. Bu hərəkat "ilk dəfə olaraq bütün İranda və ümumiyyətlə Şərq ölkələrində xalq hakimiyyətinin ilk rüşeymi olan inqilab əncümənləri yaratmış oldu. Bu xüsusiyyət Cənubi Azərbaycan hərəkatının hərəkətverici qüvvələrində demokratik qüvvələrin rolunun daha güclü olmasının nəticəsi idi. ... Cənubi Azərbaycan hərəkatı dünya ictimaiyyətinin diqqət və rəğbətini qazanmış Səttar xan və Bağır xan kimi inqilab sərkərdələrini" yetişdirmişdi [5, s. 220].

Səttar xan hərəkatı Ordubadinin "Dumanlı Təbriz" romanında öz bədii əksini tapmışdır. Səttar xan müəllifin "tarixi qəhrəmanlarından ən canlı, ən həyati surətlərdəndir. Ədibin verdiyi digər tarixi surətlərdə, ən yaxşı işlənmişlərdə belə, Səttar xana nisbətən az-çox kitabdan və romandan gələn, müasirlikdən doğan sifətlər varsa, burada o yoxdur" [6, s.70]. Məmməd Səid Ordubadinin Səttar xanı görməsi, onunla tanışlığı, daxili aləminə bələdliyi, haqqında yazdığı məqalələr romandakı tarixilik prinsipinə sadiq qaldığını bir daha sübuta yetirir.

**Ədəbiyyat:**


1. Azərbaycan tarixi (XIX əsr-XX əsrin əvvəli). Bakı: Bakı Universiteti nəşriyyatı, 2010.
2. Ordubadi M.S. Səttar xan. AMEA ƏYİ, f.14, sax.vah.270.
3. Ordubadi M.S. İranda inqilab. AMEA ƏYİ, f.14, sax.vah.401.
4. Ordubadi M.S. İran tarixinə aid oçerklər. AMEA ƏYİ, f.14, sax.vah.382.
5. Vəzirova F. Ədəbi qeydlər, tədqiqlər. Bakı: Yazıçı, 1985.
6. Vəzirova F. Məmməd Səid Ordubadi. Bakı: Gənclik, 1970.


***Самедова Наиля***

## ПРОИЗВЕДЕНИЕ МАМЕД САИДА ОРДУБАДИ «САТТАР ХАН» И ЕГО РУКОПИСНЫЕ ЭКЗЕМПЛЯРЫ

**Резюме**


Саттархан является исторической личностью, такой как Бабек IX века, Фахреддин XII века, Кероглу XVII века, Джамал,Керем XIX века и Гачаг Наби XX века.

В личном архиве известного азербайджанского писателя Мамед Саида Ордубади,который хранитсяв Институте Рукописей имени Мухаммада Физули НАНА, находитсяпроизведение о герое Саттар хане. В архиве имеется несколько рукописей этого произведения. Каждый из них является автографом, написанным арабским алфавитом. В этихрукописях революционная деятельность Саттарханаподробно отображена в разных вариантах.

В статье мы предоставили информацию о каждомэкземплярерукописей. Было принято во вниманиеих различие.


**Ключевые слова:** *Саттар хан, революция, рукопись, статья, автограф.*

***Samadova Naila***

## MAMMAD SAID ORDUBADI'S "SATTAR KHAN" WORK AND ITS MANUSCRIPT COPIES

**Summary**

Sattar Khan is a historical personality, such as Babak from the IX century, Fakhraddin from the XII century, Koroglu from the XVII century, Jamal and Karam from the XIX century, and Gachag Nabi from the XX century. In the prominent Azerbaijani writer, Mammad Said Ordubadi's personal archive at Azerbaijan National Academy of Sciences - Institute of Manuscripts named after Muhammad Fuzuli, his work about the national hero Sattar Khan is being kept. There are several manuscript copies of this work in the archive. Each of these is autograph copies written in the Arabic alphabet. In these examples, Sattar Khan's revolutionary activity highlighted in a detailed and different way.

In the presented article, information about these copies has been given, and the differences between copies brought to attention.

**Key words:** *Sattar Khan, revolution, manuscript, article, autograph.*

Redaksiyaya daxil olma tarixi: 02.06.2020
Çapa qəbul olunma tarixi: 16.06.2020

Filologiya elmləri doktoru, professor **Paşa Kərimov**
tərəfindən nəşrə tövsiyə olunmuşdur.